# Mədəni tarixi abidələrimizin təbliği

Qafqaz Albaniyası dövrünə aid edilən abidə, Azıx mağarası, Diribaba türbəsi və digərləri haqqında şagirdlərə məlumat verildi.





**_Gənclər Fondunun maliyyə dəstəyilə "Mədəni tarixi abidələrimizin təbliği" adlı layihə çərçivəsində Suraxanı "Gənclər Evi"ndə 40 nəfər şagird və 10 müəllimin və digər nümayəndələrin iştirakıyla tədbir keçirilib. Tədbirdə bu sahə üzrə mütəxəssis QHT sədri Faiq İsmayılov tədbirə dəvət olunmuşdu._**

Tədbiri Suraxanı gənclər idman idarəsinin rəisi Amil Bağırov açaraq, dövlətin gənclər siyasətindən və əsas məqsəd gənclərimizin vətənpərvər ruhda, dövlətə, millətə layiqli vətəndaş kimi böyüməsinə və milli sərvətlərə sahib çıxmasından danışıb.

Layihə rəhbəri Bəxtimşah Tağıyeva bu layihənin fərdi layihə kimi gənc üzvümüzün Şəms Tağıyevaya verilməsinin fondun və dövlətin gənclərə verdiyi önəmi olduğunu bildirdi. Sonra Azərbyacanın abidələri haqqında məlumat verdi.

Azərbyacanın ən qədim abidələri daş abidələrdir ki, daşdan oyma, yonma, cızma üsulu ilə hazırlanıb, Ordubad (Gəmiqaya), Abşeron (Mərdəkan, Şüvəlan) və Qobustan qayaları üzərində rast gəlinir.

Bakının Bayıl qəsəbəsi yaxınlığında yerləşən hazırda dənizin suları altında qalan XIII əsrdə tikilmiş Bayıl qəsridir. Qala divarları Şərqdə altı, Qərbdə beş yarımdairəvi bürclə möhkəmləndirilmişdir. 1306-cı ildə dənizdə baş verən güclü zəlzələdən dənizdə batmışdır.

Tədbirdə Qız Qalası, Şirvanşahlar Sarayı, "Atəşgah", Ramana qalası, Mərdəkan qalası, Qobustan, Ağaoğlan qəsr kompleksi, Əlincə Qalası, Mömünə Xatun Türbəsi, Şamaxı Qalası, Koroğlu Qalası, Əsgəran Qalası, Cavanşir Qalası, Gülüstan Qalası, Çıraqqala, Xocalı rayonunun Çanaxçı kəndindəki məbəd, Xocalı rayonunun Dağyurdu kəndindəki

Abidələr sahəsində mütəxəssis, QHT sədri Faiq İsmayılov işğal altında olan Alban abidələrindən, hazırda formasının ermənilər tərəfindən necə dəyişdirilməsindən və erməniləşdirilməsindən danışdı, erməni vandalizmini pislədi. Faiq İsmayılov slaytlarla şagirdlərə abidələri göstərdi.

Sonda tədbir iştirakçılarına çay-kofe və şirniyyat süfrəsi açıldı.

***Bəxtimşah***



Səs.- 2020.- 14 mart.- S.13.